Azərbaycan niyə Ümumdünya Ticarət Təşkilatına üzv olmur?

written by Atakhan Abilov Ataxan Əbilov

Rəsmi arqumentlər və siyasi-iqtisadi reallıq

Qloballaşan dünya iqtisadiyyatında beynəlxalq ticarət münasibətlərinin hüquqi tənzimlənməsində Ümumdünya Ticarət Təşkilatı (ÜTT) mərkəzi institutlardan biri hesab olunur. Hazırda dünya ticarətinin böyük hissəsi ÜTT çərçivəsində müəyyən edilmiş qaydalar əsasında həyata keçirilir və təşkilatın 160-dan çox üzvü qlobal iqtisadi sistemin əsas iştirakçılarını özündə birləşdirir.[1] ÜTT-yə üzvlük dövlətlərə yalnız yeni bazarlara çıxış imkanı yaratmır, həm də ticarət münasibətlərinin proqnozlaşdırılmasını, investisiya mühitinin yaxşılaşdırılmasını və iqtisadi idarəetmənin beynəlxalq standartlara uyğunlaşdırılmasını təşviq edir.

Azərbaycan Respublikası ÜTT-yə qoşulmaq üçün 1997-ci ildə rəsmi müraciət etmiş və bununla bağlı İşçi Qrupu yaradılmışdır. [2] Lakin üzvlük prosesi artıq təxminən otuz ilə yaxındır ki, başa çatmamış qalır. Məsələnin aktuallığı xüsusilə son illərdə daha da artmışdır. Neft gəlirlərinin nisbi azalması, iqtisadiyyatın şaxələndirilməsi zərurəti və qlobal ticarət marşrutlarının yenidən formalaşması şəraitində Azərbaycanın beynəlxalq ticarət sisteminə inteqrasiyası strateji əhəmiyyət kəsb edir. Eyni zamanda, ölkənin qeyri-neft ixracının artırılması və xarici investisiyaların cəlb edilməsi məqsədləri də ÜTT-yə üzvlük məsələsini yenidən gündəmə gətirir. [3]

Azərbaycan hakimiyyəti uzun illər ərzində üzvlük prosesinin ləngiməsini əsasən kənd təsərrüfatının qorunması və milli istehsalçıların maraqlarının müdafiəsi ilə izah etmişdir. Rəsmi mövqeyə görə, ÜTT qaydaları yerli kənd təsərrüfatı

sektorunu xarici rəqabət qarşısında zəiflədə bilər. Lakin bu arqumentin iqtisadi və hüquqi əsaslarının təhlili göstərir ki, problem daha mürəkkəb xarakter daşıyır və təkcə aqrar siyasətlə məhdudlaşmır.

Bu məqalənin əsas tədqiqat sualı ondan ibarətdir ki, Azərbaycanın ÜTT-yə üzvlük prosesinin uzanmasının əsl səbəbləri nələrdir və rəsmi izahlar bu reallığı nə dərəcədə əks etdirir? Məqalədə müqayisəli-hüquqi və siyasi iqtisad metodlarından istifadə olunmaqla Azərbaycanın üzvlük tarixçəsi, hökumətin irəli sürdüyü arqumentlər, eləcə də ölkənin iqtisadi idarəetmə modelinin ÜTT prinsipləri ilə uyğunluğu təhlil edilir. Müqayisəli perspektivdə Gürcüstan və Ermənistanın təcrübəsinə də müraciət olunur.

Məqalənin əsas tezisi ondan ibarətdir ki, Azərbaycanın ÜTT-yə qoşulmasının ləngiməsi əsasən kənd təsərrüfatının qorunması ilə deyil, mövcud iqtisadi idarəetmə modelinin ÜTT-nin tələb etdiyi şəffaflıq, rəqabət və institusional məhdudiyyətlərlə tam uzlaşmaması ilə izah oluna bilər. Bu baxımdan, ÜTT-yə üzvlük məsələsi yalnız xarici ticarət siyasəti deyil, həm də dövlət idarəçiliyinin və iqtisadi institutların xarakteri haqqında müzakirənin tərkib hissəsidir.

Ümumdünya Ticarət Təşkilatı: mahiyyəti, məqsəd və prinsipləri

ÜTT müasir beynəlxalq iqtisadi sistemin əsas institutlarından biri hesab olunur. Təşkilat 1 yanvar 1995-ci ildə yaradılmış və 1947-ci ildən qüvvədə olan Tariflər və Ticarət üzrə Baş Sazişi (GATT) əvəz etmişdir. ÜTT-nin yaradılması qlobal ticarət münasibətlərinin daha sistemli və hüquqi cəhətdən məcburi mexanizmlər əsasında tənzimlənməsinə yönəlmişdir. Hazırda təşkilat dünya dövlətlərinin böyük əksəriyyətini birləşdirir və qlobal ticarətin əsas hissəsi onun hüquqi çərçivəsi daxilində həyata keçirilir.

ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin azad, proqnozlaşdırılan və ayrı-seçkilikdən uzaq qaydalar əsasında inkişafını təmin etməkdir. [4] Təşkilatın fəaliyyətinin

mərkəzində malların, xidmətlərin və əqli mülkiyyət hüquqlarının beynəlxalq dövriyyəsini tənzimləyən çoxtərəfli sazişlər sistemi dayanır. Bu baxımdan, ÜTT yalnız ticarətin liberallaşdırılması mexanizmi deyil, həm də beynəlxalq iqtisadi münasibətlərin hüquqi sabitliyini təmin edən institusional çərçivə kimi çıxış edir.

ÜTT-nin funksiyaları bir neçə əsas istiqaməti əhatə edir. Birincisi, təşkilat çoxtərəfli ticarət sazişlərinin icrasına nəzarət edir və yeni danışıqlar üçün platforma rolunu oynayır. İkincisi, üzv dövlətlər arasında yaranan ticarət mübahisələrinin həlli üçün hüquqi mexanizm təqdim edir. Üçüncüsü, inkişaf etməkdə olan ölkələrə texniki yardım göstərərək onların qlobal ticarət sisteminə inteqrasiyasını təşviq edir. Nəhayət, ÜTT üzv dövlətlərin ticarət siyasətlərinin monitorinqini həyata keçirərək beynəlxalq iqtisadi münasibətlərdə şəffaflığın artırılmasına xidmət edir.

ÜTT-nin fəaliyyəti ayrı-seçkiliyin yolverilməzliyi, milli rejim, şəffaflıq və proqnozlaşdırıla bilənlik kimi fundamental prinsiplərə əsaslanır. Bu prinsiplər beynəlxalq ticarətdə bərabər rəqabət şəraitinin yaradılmasına, bazara giriş maneələrinin azaldılmasına və ticarət münasibətlərinin aydın qaydalar əsasında tənzimlənməsinə xidmət edir. Eyni zamanda, təşkilat inkişaf etməkdə olan ölkələr üçün xüsusi güzəştlər, keçid müddətləri və texniki dəstək mexanizmləri nəzərdə tutur ki, bu da onların qlobal ticarət sisteminə inteqrasiyasını asanlaşdırır.[5]

Beləliklə, ÜTT-yə üzvlük yalnız tariflərin azaldılması və ya xarici ticarətin genişləndirilməsi məsələsi deyildir. Bu proses eyni zamanda dövlət idarəçiliyinin, gömrük sisteminin, rəqabət mühitinin və iqtisadi institutların beynəlxalq standartlara uyğunlaşdırılmasını tələb edir. Başqa sözlə, ÜTT-yə qoşulmaq təkcə xarici iqtisadi siyasət məsələsi deyil, həm də ölkənin iqtisadi idarəetmə modelinin xarakteri ilə bağlı strateji seçimdir. Məhz bu baxımdan Azərbaycanın ÜTT-yə üzvlük prosesinin uzunmüddətli xarakter alması təkcə texniki deyil,

həm də institusional və siyasi-iqtisadi təhlil tələb edən məsələ kimi çıxış edir.

Azərbaycanın ÜTT-yə üzvlük tarixçəsi və kənd təsərrüfatı arqumenti

Azərbaycan Respublikasının ÜTT-yə üzvlük prosesi çərçivəsində hökumət çoxsaylı qanunvericilik və institusional islahatlar həyata keçirmişdir. Xarici ticarət, gömrük işi, texniki tənzimləmə, əqli mülkiyyət hüquqları, sanitar və fitosanitar tədbirlər sahəsində normativ-hüquqi bazanın müəyyən hissəsi beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Eyni zamanda, müxtəlif dövlətlərlə ikitərəfli bazara giriş danışıqları aparılmış və ÜTT katibliyi ilə çoxsaylı texniki məsləhətləşmələr keçirilmişdir.

Lakin aradan keçən təxminən otuz ilə baxmayaraq, Azərbaycan hələ də təşkilatın tamhüquqlu üzvünə çevrilməmişdir. Bu müddət ərzində postsovet məkanının əksər dövlətləri ÜTT-yə qoşulmuşdur. Gürcüstan 2000-ci ildə, Ermənistan isə 2003-cü ildə təşkilatın üzvü olmuşdur. Hətta iqtisadiyyatında dövlətin əhəmiyyətli rol oynadığı və enerji resurslarına malik olan Qazaxıstan belə 2015-ci ildə uzun danışıqlardan sonra üzvlük prosesini başa çatdırmışdır.[6] Beləliklə, Azərbaycanın üzvlük danışıqları postsovet məkanında ən uzun sürən proseslərdən birinə çevrilmişdir.

Əlbəttə, ÜTT-yə üzvlük prosesi mahiyyət etibarilə mürəkkəb və çoxşaxəlidir. Təşkilata qoşulan dövlətlər yalnız tarif siyasətini deyil, həm də daxili iqtisadi institutlarını beynəlxalq ticarət qaydalarına uyğunlaşdırmalıdırlar. Bununla belə, təxminən otuz il davam edən danışıqların yalnız texniki çətinliklərlə izah olunması inandırıcı görünmür. Bu səbəbdən üzvlük prosesinin uzanmasının arxasında duran siyasi və iqtisadi amillərin araşdırılması zərurəti yaranır.

Azərbaycan hökuməti uzun illər ərzində ÜTT-yə üzvlük danışıqlarında kənd təsərrüfatının və ərzaq təhlükəsizliyinin qorunmasını əsas prioritetlərdən biri kimi təqdim etmişdir.

Rəsmi açıqlamalarda xüsusilə aqrar subsidiyaların saxlanılması və yerli istehsalçıların xarici rəqabət qarşısında zəifləməməsi məsələləri vurğulanmışdır. Xüsusilə danışıqlar zamanı kənd təsərrüfatı subsidiyalarının həcmi və dövlət dəstəyi mexanizmləri ən çox müzakirə olunan məsələlərdən biri olmuşdur.[7]

İlk baxışdan bu arqument müəyyən məntiqə malik görünə bilər. İnkişaf etməkdə olan ölkələr üçün kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət sahəsi deyil, həm də sosial sabitlik, məşğulluq və ərzaq təhlükəsizliyi məsələsidir. Buna görə də bir çox dövlətlər aqrar sektoru müxtəlif subsidiya və müdafiə mexanizmləri vasitəsilə dəstəkləyirlər. Lakin ÜTT-nin hüquqi çərçivəsi göstərir ki, təşkilat kənd təsərrüfatı subsidiyalarını tamamilə qadağan etmir.

Əksinə, ÜTT inkişaf etməkdə olan ölkələr üçün xüsusi güzəştlər nəzərdə tutur. Kənd təsərrüfatı üzrə Saziş çərçivəsində belə ölkələrə subsidiyaların müəyyən həddə saxlanılmasına icazə verilir.[8] Xüsusilə "de minimis" qaydasına[9] əsasən, inkişaf etməkdə olan dövlətlər kənd təsərrüfatı məhsullarının ümumi istehsal dəyərinin 10 faizinə qədər dövlət dəstəyi göstərə bilərlər.[10] Bundan əlavə, ÜTT çərçivəsində xüsusi və diferensial rejim inkişaf etməkdə olan ölkələrə daha uzun keçid müddətləri və əlavə güzəştlər təqdim edir.

Bununla yanaşı, qeyd edilməlidir ki, ÜTT sistemində dövlətlərin "inkişaf etmiş" və "inkişaf etməkdə olan" ölkələrə bölünməsi üçün vahid hüquqi meyar mövcud deyildir. Bir qayda olaraq, dövlətlər özlərini istədiyi kimi təqdim edirlər. Lakin digər üzv dövlətlər belə özünütəsnifləndirməyə və ya həmin statusdan irəli gələn güzəştlərin tətbiqinə etiraz edə bilirlər.[11] Azərbaycanın ÜTT-yə qoşulma danışıqları zamanı da ölkənin inkişaf etməkdə olan dövlət statusu ilə bağlı mövqeyi müzakirə predmeti olmuşdur. Xüsusilə ABŞ Azərbaycanın inkişaf etməkdə olan ölkə kimi tanınmasına və bu statusdan irəli gələn əlavə güzəştlərdən istifadə etmək istəyinə etiraz edən dövlətlər sırasında göstərilmişdir.[12] Azərbaycan da

danışıqlar prosesində məhz bu güzəştlərdən istifadə etməyə çalışmış və kənd təsərrüfatı subsidiyalarının qorunması ilə bağlı xüsusi şərtlər irəli sürmüşdür. Bu isə onu göstərir ki, problem subsidiyaların prinsip etibarilə qadağan olunması deyil, onların həcmi və tətbiq mexanizmləri ilə bağlıdır.

Bu kontekstdə Azərbaycanın kənd təsərrüfatına verdiyi dövlət dəstəyinin həcmi xüsusi əhəmiyyət kəsb edir. Məsələn, 2010-cu ildə kənd təsərrüfatına ayrılan subsidiyaların həcminin kənd təsərrüfatı məhsulları üzrə ümumi istehsal dəyərinin təxminən 14–15 faizi səviyyəsində olduğu göstərilirdi.[13] Bu göstərici ÜTT-nin inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutduğu 10 faizlik "de minimis" həddindən yüksək idi və Azərbaycanın danışıqlar prosesində daha geniş güzəştlər əldə etmək cəhdlərini müəyyən dərəcədə izah edir.

Digər tərəfdən, Azərbaycanın iqtisadi göstəriciləri də kənd təsərrüfatı arqumentinin məhdud izah gücünə malik olduğunu göstərir. Son iyirmi il ərzində kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatındakı nisbi çəkisi əhəmiyyətli dərəcədə azalmışdır. Belə ki, 2000-ci ildə sektorun ÜDM-də payı təxminən 20 faiz olduğu halda, sonrakı dövrdə bu göstərici əsasən 5–7 faiz diapazonunda dəyişmişdir.[14] Bu dinamika kənd təsərrüfatının iqtisadi strukturda əvvəlki əhəmiyyətini qismən itirdiyini göstərir. Bununla yanaşı, dövlət uzun illər aqrar sektora subsidiyalar ayırsa da, ölkə bir sıra strateji ərzaq məhsulları üzrə idxaldan asılılığını qoruyub saxlamışdır. Bu, xüsusilə taxıl və buğda bazarında özünü daha aydın göstərir.

Beləliklə, əgər əsas problem həqiqətən kənd təsərrüfatının qorunması idisə, onda sual yaranır: ÜTT-nin təqdim etdiyi güzəşt mexanizmləri niyə kifayət hesab edilmir? Doğrudur, son illərdə də hökumət aqrar sektora geniş subsidiya siyasətini davam etdirmək niyyətində olduğunu açıq şəkildə bəyan etmişdir. Məsələn, 2026-cı ilin may ayında Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə ərzaq təhlükəsizliyi, kənd təsərrüfatına dövlət dəstəyinin artırılması və bu sahənin

inkişafına yönəlmiş yeni Dövlət Proqramının qəbul ediləcəyi vurğulanmışdır. Prezident çıxışında Azərbaycanın kənd təsərrüfatında geniş və çoxşaxəli subsidiya mexanizmləri tətbiq etdiyini xüsusi qeyd etmişdir.[15] Buna baxmayaraq, sual açıq qalır: ÜTT çərçivəsində mövcud olan xüsusi və diferensial rejimlər, keçid müddətləri və digər güzəştlər bu məqsədlərin təmin olunması üçün niyə yetərli hesab edilmir? Daha zəif iqtisadi potensiala və məhdud resurslara malik olan Gürcüstan və Ermənistan kimi dövlətlər necə oldu ki, aqrar sektorlarını qorumaqla yanaşı, ÜTT-yə üzv ola bildilər?

Bu suallar göstərir ki, kənd təsərrüfatı arqumenti üzvlük prosesinin ləngiməsini qismən izah etsə də, onun əsas səbəbi kimi çıxış etmir. Problemin daha dərin səbəblərini iqtisadi idarəetmə modelində, bazara giriş qaydalarında, gömrük siyasətində və iqtisadi institutların xarakterində axtarmaq daha məqsədəuyğun görünür.

Azərbaycanın ÜTT-yə üzv olmamasının əsl səbəbləri: siyasi-iqtisadi yanaşma

Azərbaycanın ÜTT-yə üzvlük prosesinin təxminən otuz ilə yaxındır davam etməsinə baxmayaraq, başa çatmaması bu məsələnin yalnız texniki xarakter daşımadığını göstərir. Şübhəsiz ki, ÜTT-yə qoşulma mürəkkəb və uzunmüddətli prosesdir. Lakin postsovet məkanının əksər dövlətlərinin bu prosesi daha qısa müddətdə tamamlaması onu deməyə əsas verir ki, Azərbaycanın vəziyyətini izah edən əlavə institusional və siyasi-iqtisadi amillər mövcuddur.

İnstitusional iqtisadın nümayəndələri iqtisadi inkişafın yalnız resursların mövcudluğundan deyil, həm də institusional çərçivənin keyfiyyətindən asılı olduğunu vurğulayırlar.[16] İqtisadi institutlar bazar iştirakçılarının davranışını formalaşdırır, resursların bölgüsünü müəyyən edir və iqtisadi stimullar yaradır. Bu baxımdan, ÜTT-yə üzvlük sadəcə ticarət siyasəti deyil, həm də iqtisadi institutların beynəlxalq standartlara uyğunlaşdırılması prosesidir.

Məhz bu nöqtədə Azərbaycanın mövcud iqtisadi idarəetmə modeli ilə ÜTT prinsipləri arasında müəyyən ziddiyyətlərin mövcudluğu məsələsi gündəmə gəlir. ÜTT ilk növbədə şəffaflıq, proqnozlaşdırıla bilənlik, bərabər rəqabət və bazara çıxış imkanlarının genişləndirilməsini tələb edir. Bu tələblərin həyata keçirilməsi isə yalnız xarici ticarət siyasətində deyil, bütövlükdə iqtisadi idarəetmədə institusional dəyişikliklər tələb edir.

Gömrük sistemi və qeyri-rəsmi ödəniş mexanizmləri

ÜTT-nin əsas tələblərindən biri gömrük prosedurlarının şəffaf, vahid və proqnozlaşdırıla bilən qaydalar əsasında həyata keçirilməsidir. Üzv dövlətlər gömrük tariflərini əvvəlcədən müəyyən etməli, malların qiymətləndirilməsini beynəlxalq standartlara uyğun aparmalı və ticarət iştirakçıları üçün bərabər şərtlər yaratmalıdırlar.

Gömrük sistemi istənilən dövlət üçün yalnız fiskal alət deyil, həm də iqtisadi siyasətin mühüm elementidir. Azərbaycan kimi idxaldan əhəmiyyətli dərəcədə asılı iqtisadiyyatlarda gömrük siyasəti daxili bazarın formalaşmasına, qiymətlərin müəyyən edilməsinə və xarici ticarət axınlarına ciddi təsir göstərir. Bu baxımdan, gömrük üzərində nəzarət iqtisadi idarəetmənin strateji elementlərindən biri kimi çıxış edir.

ÜTT-yə üzvlük isə bu sahədə dövlətin diskresiya (yəni subyektiv mülahizəyə əsasən qərar vermək) imkanlarını müəyyən dərəcədə məhdudlaşdırır. Təşkilatın qaydaları gömrük prosedurlarının daha şəffaf və beynəlxalq standartlara uyğun həyata keçirilməsini tələb edir. Nəticə etibarilə, ticarət siyasətində fərdi və ya situativ qərarların payı azalır, qaydalara əsaslanan idarəetmə mexanizmləri güclənir.

İqtisadi ədəbiyyatda gömrük orqanları tez-tez həm də renta axtarışı riskinin yüksək olduğu sahələrdən biri kimi xarakterizə edilir. Xüsusilə idxaldan asılı iqtisadiyyatlarda gömrük üzərində nəzarət yalnız fiskal deyil, həm də iqtisadi resursların bölgüsünə təsir göstərən mühüm institut kimi çıxış

edir. Belə şəraitdə gömrük prosedurlarının mürəkkəbliyi, inzibati diskresiyanın genişliyi və qərarların qeyri-şəffaflığı qeyri-rəsmi ödəniş mexanizmlərinin formalaşması üçün əlverişli zəmin yarada bilər.[17]

ÜTT-nin əsas tələblərindən biri məhz gömrük idarəçiliyində şəffaflığın və proqnozlaşdırıla bilmənin təmin edilməsidir. [18] Təşkilatın Gömrük Qiymətləndirilməsi haqqında Sazişi malların dəyərinin beynəlxalq standartlara uyğun müəyyən edilməsini və inzibati müdaxilə imkanlarının məhdudlaşdırılmasını nəzərdə tutur.[19] Bu baxımdan, ÜTT-yə üzvlük gömrük sistemində fərdi qərarların rolunu azaltmaqla qaydalara əsaslanan idarəetməni gücləndirə bilər.

Bu səbəbdən bəzi tədqiqatçılar hesab edirlər ki, ÜTT-yə üzvlük təkcə ticarətin liberallaşdırılması deyil, həm də gömrük idarəçiliyində rentayönümlü davranış imkanlarının məhdudlaşdırılması baxımından əhəmiyyət kəsb edir.[20]

Bu yanaşmanın praktik nəticələrini Gürcüstanın təcrübəsində müşahidə etmək mümkündür. ÜTT-yə üzvlükdən sonra ölkədə gömrük prosedurlarının sadələşdirilməsi, tarif sisteminin unifikasiyası, elektron bəyannamə mexanizmlərinin tətbiqi və sərhəd keçid prosedurlarının optimallaşdırılması istiqamətində ardıcıl islahatlar həyata keçirilmişdir. Nəticədə, gömrük orqanlarının ayrı-ayrı təsərrüfat subyektlərinə münasibətdə diskresiya imkanları məhdudlaşdırılmış, qərarların qəbulunda insan amilinin rolu azaldılmış və ticarət iştirakçıları üçün daha vahid qaydalar formalaşdırılmışdır.

Bu dəyişikliklər dövlətin xarici ticarəti tənzimləmək funksiyasını aradan qaldırmamış, lakin həmin funksiyanın həyata keçirilməsi üsullarını dəyişdirmişdir. Əgər əvvəlki modeldə inzibati müdaxilə və fərdi qərarlar daha geniş yer tuturdusa, yeni modeldə əsas vurğu qanunla əvvəlcədən müəyyən edilmiş prosedurlara, elektron nəzarət mexanizmlərinə və şəffaf hesabatlılığa yönəlmişdir. Bu səbəbdən, ÜTT-yə üzvlük gömrük sistemində yalnız texniki deyil, həm də institusional

dəyişikliklərə səbəb olur və dövlətin iqtisadi proseslərə təsir imkanlarını daha çox qaydalara əsaslanan mexanizmlər vasitəsilə həyata keçirməsini tələb edir.

Xarici ticarət statistikalarındakı uyğunsuzluqlar

Azərbaycanın xarici ticarət statistikaları ilə bağlı müzakirə olunan məsələlərdən biri də rəsmi idxal məlumatları ilə ticarət tərəfdaşlarının ixrac göstəriciləri arasında müşahidə olunan fərqlərdir. Beynəlxalq ticarət tədqiqatlarında geniş istifadə olunan "mirror statistics" metoduna əsasən, bir ölkənin idxal məlumatları onun ticarət tərəfdaşlarının ixrac göstəriciləri ilə müqayisə edilir. Azərbaycana münasibətdə aparılmış bəzi araşdırmalar göstərir ki, 2010–2015-ci illərdə ölkənin rəsmi idxal statistikaları ilə tərəfdaş dövlətlərin Azərbaycana ixrac məlumatları arasında təxminən 24,8 milyard ABŞ dolları həcmində fərq mövcud olmuşdur.[21] Bu fərqlərin müəyyən hissəsi statistikanın aparılması metodologiyası, nəqliyyat xərcləri və hesabat dövrləri ilə izah oluna bilsə də, onların miqyası əlavə izahat və daha yüksək institusional şəffaflıq tələb edir. Bununla belə, son illərdə UN Comtrade məlumat bazası ilə milli statistik hesabatlar arasında fərqlərin əhəmiyyətli dərəcədə azalması müşahidə olunur ki, bu da statistik metodologiyaların yaxınlaşması və hesabatlılıq sistemlərinin təkmilləşməsi ilə izah edilir.[22]

Buna baxmayaraq, beynəlxalq müqayisə oluna bilən ticarət statistikasının tam harmonizasiyası hələ də institusional inkişaf tələb edən sahələrdən biri olaraq qalır. Bu baxımdan, ÜTT çərçivəsində qəbul edilən standartlar və şəffaflıq mexanizmləri statistik uyğunluğun və hesabatlılığın daha da gücləndirilməsinə xidmət edən mühüm institusional alət kimi çıxış edir.

Rəqabət mühiti və inhisarçılıq problemi

Azərbaycan iqtisadiyyatı ilə bağlı aparılan çoxsaylı tədqiqatlarda bazara giriş imkanlarının məhdudluğu, rəqabət mühitinin institusional baxımdan yetərincə inkişaf etməməsi və

ayrı-ayrı sektorların yüksək konsentrasiya səviyyəsi sistemli problem kimi qeyd edilir.[23] Bazar iqtisadiyyatının səmərəli fəaliyyəti üçün sahibkarların bazara bərabər çıxışı, rəqabət şəraitinin qorunması və inzibati maneələrin minimuma endirilməsi mühüm əhəmiyyət daşıyır.

ÜTT-nin hüquqi sistemi məhz bu prinsiplərin beynəlxalq səviyyədə təmin edilməsinə yönəlmiş çoxqatlı mexanizmlərdən ibarətdir. Xüsusilə, daha əlverişli rejim (most-favoured-nation, MFN) prinsipi[24] bütün üzv dövlətlərə eyni tarif və ticarət rejiminin tətbiqini tələb etməklə diskriminasiyanı qadağan edir və ayrı-ayrı ölkələrə qarşı preferensial və ya məhdudlaşdırıcı yanaşmanı hüquqi baxımdan istisna edir. Bundan əlavə, ÜTT çərçivəsində qəbul edilən Dövlət Satınalmaları Sazişi (GPA) [25] dövlət tenderlərində şəffaflıq, əvvəlcədən elan olunmuş və obyektiv seçim meyarları, eləcə də yerli və xarici şirkətlər arasında ayrı-seçkiliyin aradan qaldırılması kimi əsas prinsipləri hüquqi öhdəlik kimi müəyyən edir. Bu mexanizm dövlət satınalmalarını qapalı inzibati qərar sferasından çıxararaq rəqabət əsaslı bazar prosedurlarına yaxınlaşdırır. Eyni zamanda, ÜTT-nin xidmət ticarəti üzrə hüquqi çərçivəsi, xüsusilə Telekommunikasiya üzrə Prinsiplər Sənədi,[26] bu sektorda dominant mövqeyə malik operatorların bazar gücündən sui-istifadəsini məhdudlaşdıran mühüm tənzimləyici prinsiplər müəyyən edir. Sənəd rəqabətin təmin olunması, tənzimləyici orqanın institusional müstəqilliyi və tarif siyasətində qeyri-şəffaf və diskriminativ yanaşmaların qarşısının alınmasını tələb edir.

Azərbaycan kontekstində isə bu sahədə institusional keçid asan deyil. İqtisadiyyatın müəyyən strateji və yüksək gəlirli sektorlarında yüksək konsentrasiya, inzibati resursların bazar davranışlarına təsiri və rəqabət mexanizmlərinin zəif institusional müstəqilliyi ÜTT-nin tələb etdiyi açıq və proqnozlaşdırıla bilən bazar modelinə tam uyğunlaşmanı məhdudlaşdıran amillər kimi çıxış edir. Bu səbəbdən, ÜTT-yə üzvlük təkcə texniki-tarif uyğunlaşması deyil, həm də iqtisadi güc münasibətlərinin yenidən strukturlaşdırılmasını tələb edən

kompleks islahat paketidir.

Bu kontekstdə 2025-ci ildə qəbul edilmiş Rəqabət Məcəlləsi[27] formal olaraq rəqabət hüququnun institusional əsaslarını genişləndirsə də, əsas məsələ onun tətbiq mexanizmlərinin real müstəqilliyi və icra gücüdür. Bir çox ölkə təcrübəsində olduğu kimi, rəqabət qanunvericiliyinin mövcudluğu özü-özlüyündə bazarın liberallaşmasını təmin etmir, həlledici faktor onun siyasi-iqtisadi güc strukturlarından nə dərəcədə asılı olmamasıdır.

Nəticə etibarilə, ÜTT prinsipləri ilə milli iqtisadi idarəetmə modeli arasında mövcud struktur fərqləri Azərbaycanın təşkilata üzvlüyü prosesini yalnız texniki uyğunlaşma deyil, dərin institusional transformasiya məsələsinə çevirir. Bu isə, xüsusilə rəqabət siyasəti və bazara giriş rejimi sahəsində, ciddi siyasi-iqtisadi müqavimət ehtimalını artıran əsas amillərdən biridir.

Rentayönümlü iqtisadiyyat və neft amili

Azərbaycan iqtisadiyyatının mühüm xüsusiyyətlərindən biri uzun illər enerji resurslarından əldə olunan gəlirlərin yüksək paya malik olmasıdır. İqtisadi ədəbiyyatda belə sistemlər tez-tez rentayönümlü iqtisadiyyat kimi xarakterizə olunur. Bu modeldə dövlət büdcəsinin və iqtisadi aktivliyin mühüm hissəsi təbii sərvətlərdən əldə edilən gəlirlər hesabına formalaşır.[28]

Rentayönümlü iqtisadiyyatların xüsusiyyətlərindən biri institusional islahatlara olan motivasiyanın nisbətən zəif olmasıdır. Təbii resurslardan əldə edilən gəlirlər qısamüddətli dövrdə iqtisadi sabitliyi təmin edə bildiyindən, rəqabət mühitinin inkişafı və iqtisadi liberallaşma sahəsində islahatlar daha ləng həyata keçirilə bilər.

Azərbaycanın ÜTT-yə qoşulma prosesinin uzunmüddətli xarakter almasında da bu amilin müəyyən rol oynadığı ehtimal edilə bilər. Çünki enerji gəlirləri uzun illər iqtisadi artımın əsas mənbəyi olmuş və qlobal ticarət sisteminə tam inteqrasiyaya

olan ehtiyacı qismən azaltmışdır. Bununla belə, son illərdə neft qiymətlərindəki dəyişkənlik və iqtisadiyyatın şaxələndirilməsi zərurəti bu yanaşmanın davamlılığı barədə yeni suallar yaratmışdır.

İqtisadi liberallaşma və institusional transformasiya

ÜTT-yə üzvlük yalnız tariflərin azaldılması və ya gömrük prosedurlarının sadələşdirilməsi ilə məhdudlaşmır. Bu proses daha geniş institusional transformasiyanı nəzərdə tutur. Şəffaf idarəetmə, hüquqi müəyyənlik, müstəqil arbitraj mexanizmləri və proqnozlaşdırıla bilən iqtisadi mühit müasir qlobal iqtisadiyyatın əsas tələbləri hesab olunur.

Siyasi iqtisad ədəbiyyatında qeyd olunur ki, iqtisadi açıqlaşma və institusional islahatlar arasında qarşılıqlı əlaqə mövcuddur. Qlobal iqtisadi sistemə inteqrasiya yalnız xarici ticarətin artmasına deyil, həm də daxili iqtisadi institutların dəyişməsinə təkan verə bilər. Bu səbəbdən, ÜTT-yə üzvlük bəzi hallarda təkcə iqtisadi deyil, həm də idarəetmə modeli ilə bağlı strateji qərar kimi qiymətləndirilir.[29]

Məhz bu baxımdan Azərbaycanın ÜTT-yə üzvlük məsələsini yalnız kənd təsərrüfatı və ya tarif siyasəti kontekstində qiymətləndirmək kifayət etmir. Məsələ daha geniş institusional çərçivədə nəzərdən keçirilməlidir. Mövcud faktlar göstərir ki, üzvlük prosesinin uzanması texniki çətinliklərlə yanaşı, iqtisadi idarəetmə modelinin xarakteri və institusional transformasiyanın dərinliyi ilə də sıx əlaqəlidir.

Beləliklə, Azərbaycanın ÜTT-yə qoşulmaması məsələsi təkcə xarici ticarət siyasətinin deyil, həm də ölkənin iqtisadi inkişaf modelinin mahiyyəti ilə bağlı müzakirənin tərkib hissəsidir. Bu isə məsələnin sadəcə iqtisadi deyil, eyni zamanda institusional və siyasi xarakter daşıdığını göstərir.

Gürcüstan və Ermənistan təcrübəsi: müqayisəli təhlil və nəticələr

Azərbaycanın ÜTT-yə üzvlük prosesini daha dolğun qiymətləndirmək üçün regionun digər dövlətlərinin təcrübəsinə nəzər salmaq faydalıdır. Xüsusilə Gürcüstan və Ermənistan nümunələri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Hər iki dövlət müstəqilliyin ilk illərində ciddi iqtisadi çətinliklərlə üzləşmiş, məhdud maliyyə resurslarına malik olmuş və bazar iqtisadiyyatına keçid prosesini mürəkkəb geosiyasi şəraitdə həyata keçirmişdir. Buna baxmayaraq, hər iki ölkə ÜTT-yə üzvlük prosesini Azərbaycandan xeyli əvvəl başa çatdırmışdır.

Gürcüstan 14 iyun 2000-ci ildə, Ermənistan isə 5 fevral 2003-cü ildə ÜTT-nin tamhüquqlu üzvünə çevrilmişdir. Maraqlıdır ki, həmin dövrdə hər iki ölkənin iqtisadi potensialı və maliyyə imkanları Azərbaycanla müqayisədə əhəmiyyətli dərəcədə zəif idi. Onlar nə Azərbaycanın malik olduğu enerji ehtiyatlarına, nə də iri neft gəlirlərinə sahib idilər. Buna baxmayaraq, bu ölkələr qlobal ticarət sisteminə inteqrasiyanı strateji prioritet kimi müəyyən etdilər.

Gürcüstanın təcrübəsi xüsusilə diqqətəlayiqdir. Bu islahatların nəticəsi olaraq Gürcüstan *qlobal dəyər zəncirlərinə* inteqrasiyanı müəyyən sahələrdə genişləndirmiş, xüsusilə xidmət və logistika sektorlarında regional tranzit platforma rolunu gücləndirmişdir. İxrac strukturunda isə kənd təsərrüfatı məhsulları və turizmə bağlı xidmətlərin payı artaraq ölkənin iqtisadi modelini daha açıq və xidmətyönlü xarakterə yaxınlaşdırmışdır. ÜTT-yə üzvlükdən sonra ölkədə gömrük idarəçiliyinin sadələşdirilməsi, ticarət prosedurlarının liberallaşdırılması və biznes mühitinin yaxşılaşdırılması istiqamətində geniş islahatlar həyata keçirilmişdir. Əlbəttə, bu nəticələri yalnız ÜTT üzvlüyü ilə izah etmək düzgün olmazdı. Lakin üzvlük iqtisadi münasibətlərin qaydalara əsaslanan sistemə keçidini sürətləndirən mühüm amillərdən biri olmuşdur.

Ermənistanın təcrübəsi də maraqlı müqayisə imkanı yaradır. Regional blokada, məhdud nəqliyyat əlaqələri və kiçik daxili

bazar kimi struktur problemlərə baxmayaraq, ÜTT üzvlüyündən sonra Ermənistanın ixrac strukturunda informasiya texnologiyaları və emal sənayesi üzrə məhsulların payı artmış, xüsusilə *“biznes proseslərinin autsorsinqi”* (BPO) və IT xidmətləri sektorunda beynəlxalq əməkdaşlıq genişlənmişdir. Bu proses ölkənin qlobal xidmət dəyər zəncirlərinə daha aktiv qoşulmasına şərait yaratmışdır.[30]

Şübhəsiz ki, ÜTT-yə üzvlük avtomatik olaraq iqtisadi inkişaf və rifah təmin etmir. Qlobal ticarət sisteminə inteqrasiya islahatların uğurunu təmin edən yeganə amil deyildir. Lakin beynəlxalq təcrübə göstərir ki, qaydalara əsaslanan ticarət sistemi investisiya mühitinin yaxşılaşdırılmasına, bazara çıxış imkanlarının genişlənməsinə və iqtisadi münasibətlərin daha proqnozlaşdırıla bilən xarakter almasına töhfə verə bilər.

Müqayisəli təhlil göstərir ki, Azərbaycanın ÜTT-yə üzvlük prosesinin uzanmasını iqtisadi potensialın çatışmazlığı və ya texniki çətinliklərlə izah etmək çətindir. Əksinə, regionun daha məhdud resurslara malik dövlətlərinin təcrübəsi göstərir ki, əsas məsələ iqtisadi imkanlardan daha çox institusional uyğunlaşma və siyasi iradə ilə bağlıdır.

Beləliklə, Azərbaycanın ÜTT-yə qoşulması məsələsi təkcə xarici ticarət siyasəti ilə bağlı deyil. Bu məsələ ölkənin iqtisadi inkişaf modelinin gələcək istiqaməti, dövlət idarəçiliyinin xarakteri və qlobal iqtisadi sistemdə tutmaq istədiyi yer haqqında daha geniş strateji seçimin tərkib hissəsidir. Bu baxımdan, “Azərbaycan nə vaxt ÜTT-yə üzv olacaq?” sualından daha vacib olan sual, bəlkə də, budur: Azərbaycan iqtisadi münasibətlərin hansı modelini seçmək niyyətindədir: daha qapalı və inzibati nəzarətə əsaslanan modeli, yoxsa daha açıq, rəqabətli və qaydalara əsaslanan iqtisadi sistemi?

Qeydlər və istinadlar:

[1] WTO, Understanding the WTO, Geneva: WTO, 2015, p. 9, https://www.wto.org/english/theWTo_e/whatis_e/tif_e/understanding_e.pdf

[2] WTO, *Accessions: Azerbaijan,* https://www.wto.org/english/thewto_e/acc_e/a1_azerbaidjan_e.htm

[3] World Bank, *Azerbaijan Country Economic Memorandum: Building a Competitive Economy,* Washington, DC: World Bank, 2023, p.: 15–21

[4] WTO, *Understanding the WTO, Geneva: WTO, 2015, p.10,* https://www.wto.org/english/theWTo_e/whatis_e/tif_e/understanding_e.pdf

[5] WTO, *Principles of the Trading System,* https://www.wto.org/english/thewto_e/whatis_e/tif_e/fact2_e.htm

[6] WTO, *Members and Observers,* https://www.wto.org/english/thewto_e/whatis_e/tif_e/org6_e.htm

[7] M.Zeynallı, A.Mehtiyev. *Ümumdünya Ticarət Təşkilatı və Azərbaycanın Kənd Təsərrüfatı. Araşdırma sənədi.* Bakı, 2023. https://www.idi-aze.org/files/pdf/2025-01-08/iKQZtT3GjBsHJPXPejHCjjzmeOA19G51y9oL9Kmw.pdf

[8] WTO, *Agreement on Agriculture,* Geneva: WTO, 1995, arts. 6–15, https://www.wto.org/english/docs_e/legal_e/ag_e.htm

[9] “De minimis” ifadəsi latın dilindəki “de minimis non curat lex” hüquq prinsipindən götürülmüşdür və hərfi mənası “qanun xırda şeylərlə məşğul olmur” deməkdir. Hüquqda bu termin əhəmiyyətsiz, çox kiçik və hüquqi baxımdan nəzərə alınmağa dəyməyən halları ifadə edir.

[10] WTO, *Agreement on Agriculture,* Geneva: WTO, 1995, arts. 6.4, https://www.wto.org/english/docs_e/legal_e/ag_e.htm

[11] Wto.org. *Who are the developing countries in the WTO?*

https://www.wto.org/english/tratop_e/devel_e/d1who_e.htm?utm_source

[12] Trend.az, *WTO Secretariat extends working group on Azerbaijan,* https://www.trend.az/business/economy/1649080.html

[13] Yenə orada.

[14] World Bank, *Agriculture, forestry, and fishing, value added (% of GDP) – Azerbaijan,* https://data.worldbank.org/indicator/NV.AGR.TOTL.ZS?locations=AZ

[15] President.az, *İlham əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib,* https://president.az/az/articles/view/72507

[16] D. Acemoglu & A. Robinson, *Why Nations Fail: The Origins of Power, Prosperity and Poverty*, New York: Crown Publishers, 2012, p.: 68–95.

[17] World Bank, *Helping Countries Combat Corruption: The Role of the World Bank*, Washington, DC: World Bank, 1997, 8–15. https://documents1.worldbank.org/curated/en/799831538245192753/pdf/Helping-Countries-Combat-Corruption-The-Role-of-the-World-Bank.pdf

[18] WTO, *Agreement on Trade Facilitation,* Geneva: WTO, 2017, arts. 1–10, https://www.wto.org/english/docs_e/legal_e/tfa_e.htm

[19] WTO, *Agreement on Implementation of Article VII of GATT 1994*, https://www.wto.org/english/docs_e/legal_e/20-val.pdf

[20] Moise E. & Sorescu S., *Exploring the Role of Trade Facilitation in Supporting Integrity in Trade,* OECD Trade Policy Papers No. 228, Paris: OECD Publishing, 2019, p.: 16–18.

https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2019/05/exploring-the-role-of-trade-facilitation-in-supporting-integrity-in-trade_72ec6f0b/cfbcef14-en.pdf

[21] Meydan. tv, *Azerbaijan Customs Committee fails to report billions in imports,* https://www.meydan.tv/en/article/azerbaijan-customs-committee-fails-to-report-billions-in-imports/

[22] UN Comtrade, *Azerbaijan,* https://data.un.org/Data.aspx?d=ComTrade&f=_l1Code:53;rtCode:31&q=Azerbaijan

[23] World Economic Forum, *The Global Competitiveness Report 2019,* Geneva: WEF, 2019, https://www3.weforum.org/docs/WEF_TheGlobalCompetitivenessReport2019.pdf

[24] Wto.org, *Procedures for notifying and sharing information: most-favoured nation,* https://www.wto.org/english/tratop_e/trips_e/trips_notif4_art4d_e.htm

[25] Wto.org, *Agreement on Government Procurement,*

https://www.wto.org/english/tratop_E/gproc_e/gp_gpa_e.htm?utm_source

[26] Wto.org, *Telecommunication services,*

https://www.wto.org/english/tratop_e/serv_e/telecom_e/telecom_e.htm?utm_source

[27] https://e-qanun.az/framework/56187

[28] World Bank, *Azerbaijan Country Economic Memorandum: Building a Competitive Economy,* Washington, DC: World Bank, 2022, https://documents1.worldbank.org/curated/en/099100009222236784/pdf/P17532606988e2056084e603c9c48ddc618.pdf

[29] Peter Van den Bossche & Werner Zdouc, *The Law and Policy*

of the World Trade Organization, 5th ed., Cambridge: Cambridge University Press, 2022, p.: 67–74

[30] WTO, *Concluding remarks by the Chairperson*, https://www.wto.org/english/tratop_e/tpr_e/tp479_crc_e.htm